# GƏNC FİLOLOQ ALİMİN UĞURLARI





Son dövrlərdə müxtəlif kuluarlarda, gənclərimizin elmə həvəs göstərmədiyi, tədqiqat işlərindən uzaq düşdüyü barədə fikir formalaşıb. Düşünürəm ki, əksər hallarda bu özünü doğrultmur. Xüsusən çalışdığım sahədə - sənətşünaslıq, mədəniyyətşünaslıq, musiqişünaslıqda sözügedən dəyərləndirmə ümumiyyətlə, reallığa uyğun gəlmir. Belə ki, qeyd etdiyim istiqamətdə xeyli gənclər - oğlanlar, qızlar cəmləşib və fəallıq göstərirlər. Haqqında söhbət açacağımız xanım isə dilçilik üzrə mütəxəssisdir.

Aysel İlqar qızı Məmmədbəyli (əvvəlki soyadı Kərimova) 24 avqust 1986-cı ildə Bakıda ziyalı ailəsində doğulub. 1993-2004-cü illərdə 258 saylı məktəbdə oxuyub. 2004-2008-ci illərdə Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsində filologiya üzrə təhsil alıb. İstər bakalavr, istərsə də dilşünaslıq ixtisası üzrə magistr pilləsini (2010) fərqlənmə diplomu ilə bitirib.

A.Məmmədbəylinin elmi-nəzəri fəaliyyətini mərhələlər üzrə təsnif etmək lazım gəlir, axı gənc də olsa həmin sferadakı işləri xeyli genişdir. Əlbəttə, yaradıcı şəxsin uğurlarını hərtərəfli işıqlandırmaq, bir mütəxəssis kimi məhsuldarlığını qiymətləndirmək yalnız çalışdığı elmi istiqaməti müəyyənləşdirməklə mümkündür.

Aysel xanım əmək fəaliyyətinə ADU-nun ingilis dilinin üslubiyyəti kafedrasında laborant kimi başlayıb, 2010-cu ildən həmin kafedrada müəllimdir. Pedaqoji sahədə çalışmaqla bərabər, elmi axtarışlarını bir an da olsun dayandırmayıb. 2011-ci ildə ADU-nun “German dilləri” ixtisası üzrə dissertantura şöbəsinə qəbul olunub və uğurlu tədqiqat, müdafiə işindən sonra 2016-cı ildə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. 2017-ci ilin aprelindən etibarən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda filologiya elmləri doktoru hazırlığı üzrə doktorantdır.

Aysel Məmmədbəyli 2018-ci ildən ADU-nun ingilis dilinin leksikologiyası və üslubiyyəti kafedrasında baş müəllim vəzifəsində çalışır. Hazırda dosent əvəzidir.

Qeyd olunmalıdır ki, bugünün gənc alimləri sabah özləri də də neçə-neçə alimlər yetişdirəcəklər. Təbii ki, bu istiqamət elmin, bütünlükdə cəmiyyətin inkişafı üçün çox vacibdir.

Aysel xanımın atası, tanınmış memar, musiqiçi, əsl ziyalı İlqar Kərimovun söylədiklərindən: “Orta təhsil illərində yeniyetmələrin əksəriyyəti hansı ixtisas üzrə təhsil alacağını, hansı istiqamətə gedəcəyini təyin edə bilmir. Və ya bu məsələdə valideynin tövsiyəsi, məsləhəti, bəzi hallarda diktəsi, təpkisi əsas rol oynayır. Bizdə isə belə olmayıb. İki qız böyütmüşəm. İkisi də elm sahəsindədir. Və bu məsələdə mən onlara tam sərbəstlik vermişəm. Zaman göstərdi ki, hər ikisi doğru yoldadır.

İş otağımda elmi, sənədli, bədii kitablar, masamın üzərində mütəfəkkirlərin elm haqqında fikirlərini əks etdirən əsərlər təbii ki, övladlarımın nəzərini cəlb etməyə bilməzdi. Kitablar arasında Məhəmməd peyğəmbərin kəlamları da var. Orta məktəbin VIII sinfində oxuyarkən Aysel kitabxanamdakı elmi kitablara meyl etməyə başladı. Bir gün məndən icazə alıb peyğəmbərimizin kəlamları toplanmış kitabı öz otağına apardı. Bir müddət sonra həmin kitabda yazılanları mənə söylədi: “Elm Çində olsa da, onun ardınca gedin”, “Beşikdən qəbrədək öyrənin”, “Elmin fəziləti ibadətin fəzilətindən üstündür”, “İnsanlar elə bir sədəqə verə bilməzlər ki, öyrədilən, yayılan elmdən üstün ola”, “Biliyinizi yazı ilə qüvvətləndirin”, “Elm hər bir müsəlmana - istər kişi, istər qadın - vacibdir”, “Alimlərə hörmət qoyun, onlar peyğəmbərlərin varisləridir. Onlara hörmət - Allaha və elçisinə ehtiramdır”.




## ESTAFET PRİNSİPİ ELMİN VƏ BÜTÖVLÜKDƏ CƏMİYYƏTİN İNKİŞAF ETMƏSİ ÜÇÜN ÇOX MÜHÜM AMİLDİR



Övladlarımın elmə istiqamət almasında bir çox mütəfəkkirlərin, xüsusilə İslam peyğəmbərinin kəlamlarının mühüm əhəmiyyəti oldu. Nəsirəddin Tusinin "Əxlaqi-nasiri" əsərini də dəfələrlə oxuyublar..."

Qeyd olunmalıdır ki, Aysel Məmmədbəyli artıq elmin bir parçası, zərrəsidir və uğurlu nəticələri ilə göz önündədir. O, daim irəliyə doğru can atır. Sanballı fəaliyyətini təsdiqləyən isə indiyə qədər çap olunmuş əsərləri və elmi məqalələridir. Həmin məqalələrin siyahısı ilə oxucuların da tanışlığı yerinə düşər.

İlqar Kərimovun fikirlərindən: "Mən uşaqlarıma əvvəldən elə şərait yaratmışam ki, məişət qayğıları ilə deyil, yalnız təhsilləri ilə məşğul olub elm ardınca getsinlər. Təbii ki, belə imkan onların öz üzərində çalışmaları, sərbəst mütaliələrinin artması və elmə bağlanmaları üçün şərait yaratdı. Nəyə nail olublarsa, yalnız öz zəhmətləri, müntəzəm çalışmaları və bacarıqları sayəsində başa gəlib. Çox istərdim ki, Aysel hüquqşünas olsun. Fikrim beynimdə, arzum ürəyimdə qaldı və heç nə bildirmədim, o isə öz istiqamətini müəyyənləşdirib yola çıxdı".

A.Məmmədbəyli iş yerində çox fəaldır və yaxı təşkilatçıdır. Bu xanımda vətənpərvərlik, milli təəssübkeşlik, el-obaya, doğma torpağa məhəbbət, etnoqrafiya, ədəbiyyat və mədəniyyətə bağlılıq çox güclüdür. Milli musiqimiz, qədim çalğı alətlərimiz barədə maraqlı tədbirlər keçirir. Bununla əlaqədar araşdırdığı faktları, əldə etdiyi məlumatları, vəsaiti, öyrəndiyi materialı, bir sözlə, lazımi nə varsa onu ingiliscəyə çevirir. Tədbirə mütəxəssisləri, sənətşünasları, səfirliklərin nümayəndələrini də dəvət edir. Belə səpkili tədbirlər təhsil ocağının tələbələri üçün xüsusi əhəmiyyət daşıyır, onların ədəbiyyatımız və mədəniyyətimizə sevgisini artırır.

Aysel xanım klassik Azərbaycan mütəfəkkirləri, şairləri və yazıçılarının əsərlərindəki dürlü, hikmətli fikirləri toplayaraq aforizmlər şəklində işləyib ingilis dilinə çevirir. Xeyli vaxtdır ki, bu gün və gələcəyimiz üçün həddən artıq gərəkli bu işlə məşğul olaraq topladıqlarını kitab halına salaraq nəşrinə çalışır. Danılmaz faktdır ki, hazırda dünyanın elmi dili və danışıq dili ingilis dilidir. Bu dildə yazılan ədəbiyyat, qəzetlər, dərgilər və informasiya materialı beynəlxalq aləmdə daha geniş yayılır, oxunur və dərk edilir.

Bilirik ki, tarixən bizə düşmən kəsilən bədnam qonşumuz ermənilər tarixi torpaqlarımızı, milli-mənəvi dəyərlərimizi, mədəniyyət nümunələrimizi, etnoqrafiyamızı, abidələrimizi, milli mətbəximizi, hətta mahnılarımızı, oyun havalarımızı və xalq rəqslərimizi öz adlarına cıxaraq dünyada bu halda təbliğ edirlər. Aytən kimi gənc alimlərimizin gördüyü işlər təbii ki, böyük dəyər və mahiyyət daşıyır. Belə ziyalılarımızı və onların gördüyü işləri yalnız təqdir etmək və alqışlamaq lazımdır. Odur ki, xanım Məmmədbəyliyə müvəffəqiyyətlər arzulayırıq!

Aysel xanım ziyalı ailənin gəlinidir. Məmmədbəylilər ailəsinin hər bir üzvü gördükləri mühüm işlərlə ölkəmizdə sayılıb seçilirlər. A.Məmmədbəyli iki övlad anasıdır. Bu ailədə babaların, nənələrin və ata-ananın qayğısı, dərin məhəbbəti ilə xoşbəxt Azərbaycan övladları böyüyür. Pedaqoji fəaliyyətə, elmə bağlı olan Aysel Məmmədbəyli bu yolda əzmlə, böyük həvəs və ümidlərlə addımlayır. Təbii ki, arzular böyükdür. Bizdən isə ona böyük nailiyyətlər arzu etmək qalır. Uğurlar, Aysel xanım! ❖

**Əhsən Rəhmanlı**
Tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru
**E-mail:** ahsanrahmanli@mail.ru